**Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 917-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 10, maddə 762, 12, maddə 973; 2010, 7, maddə 587; 2011, 6, maddə 485, 7, maddə 593; 2012, 5, maddə 410; 2013, 1, maddə 16, 11, maddə 1267; 2016, 1, maddə 12; 2017, 4, maddə 522, 5, maddə 752, 11, maddə 1976; Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1065-VQD nömrəli və 1 may tarixli 1112-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci maddənin birinci və ikinci cümlələrində "XVIII" rəqəmlərindən sonra ", XVIII-I" rəqəmləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda XVIII-I fəsil əlavə edilsin:

**"XVIII-I FƏSİL**

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ DEPUTATININ MANDATDAN MƏHRUM EDİLMƏSİ HAQQINDA MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ QƏRARININ MÜBAHİSƏLƏNDİRİLMƏSİNƏ DAİR İDDİA ÜZRƏ İCRAAT

**Maddə 130-1. Azərbaycan Respublikası Milli Məclisi deputatının mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsinə dair iddia üzrə icraatın xüsusiyyətləri**

130-1.1. Azərbaycan Respublikası Milli Məclisi deputatının mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsinə dair iddia ərizəsi apellyasiya instansiyası məhkəməsinə həmin qərar rəsmi dərc edildiyi gündən 10 gün müddətində verilir.

130-1.2. Azərbaycan Respublikası Milli Məclisi deputatının mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsinə dair iddia ərizəsinə məhkəmə tərəfindən 15 gün müddətində baxılmalı və onun mahiyyəti üzrə qərar qəbul edilməlidir.

130-1.3. Məhkəmə tərəfindən iddia ərizəsinə ərizəçinin və Mərkəzi Seçki Komissiyasının nümayəndəsinin iştirakı ilə baxılır. Məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş göstərilən şəxslərin məhkəməyə gəlməməsi işə baxılmasına və onun həll edilməsinə mane olmur.

130-1.4. İş üzrə apellyasiya instansiyası məhkəməsinin qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər.

130-1.5. Ali Məhkəmə şikayətə onun daxil olduğu vaxtdan 15 gün müddətində baxıb qərar qəbul etməlidir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyun 2018-ci il
1228-VQD